

# BÖYÜK SİYASƏT: HUMANİZM VƏ ANALIQ YOLU

Birinci vitse-prezident olmaqdan, xoşməramlı missiya və vəzifələrin sahibi olmaqdan əvvəl Mehriban xanım Əliyeva mental dəyərlərin daşıyıcısı, Azərbaycan qadınının milli ruhu özündə ehtiva edən obrazıdır.

Azərbaycanın siyasi-mənəvi həyatında görünən gündən bəri onun insanlara doğmalığı, sadə adamlara sevgisi o qədər səmimi olub ki, hər kəs onu özünün doğması, yaxını və əzizi kimi tanıyıb.

Biz onu müxtəlif tədbirlərdə qaynar həyatın içində görürük. Sanki xüsusi fəhm və doğmalıq hissiylə insanların arzu və niyyətlərini gözlərindən oxuyur. Təbiəti etibarilə istiqanlıdır. Elə bil ki, Tanrı onun alnına yazıb adının mənasını mənəvi aləmindən gələn təbiətilə eyniləşdirmək.

Açılışlarda görürük. Rəsmi və qeyri rəsmi tədbirlərin iştirakçısı kimi görürük. Beynəlxalq arenada görürük. Hər dəfə orijinal, duyğulu, məlumatlarla zəngin  çıxışları ilə dünya problemlərinin asan və çətin tərəflərini göstərməyə çalışır və onun məntiqi hər kəsi razı salır.

Mədəniyyət tariximizə xüsusi hörmətlə yanaşması, mədəniyyətimizin inkişafı naminə ardıcıl, yeni-yeni lahiyələrin həyata keçirilməsinə rəvac verməsi göstərir ki, o, bu xalqın dəyərlərini bütün varlığıyla sevir və yüksək qiymətləndirir.

Bu gün Azərbaycanın çətinlik qarşısında qalan çoxlu adamları ona müraciət edir, ondan kömək umur. Əgər belə demək mümkünsə, o, heç kimi cavabsız qoymur.

Mehriban xanım Əliyeva böyük siyasətə yeni və aparıcı bir çalar gətirib. Onun mənəvi mühitində böyük siyasət humanizm və analıq yoludur.

Bəlkə də, dünyanın qadın siyasətçiləri, dəmir lediləri sırasında o, bu ali insani keyfiyyətləri ilə əbədi ön yeri özünə təmin edib.

*Əli Rza XƏLƏFLİ,*
*03.09.2019*

Kredo 2019.- 4 sentyabr.- S.1.